SSR BACKGROUNDER

# Kəşfiyyat Xidməti Üzərində Nəzarət

## Demokratik idarəçilik çərçivəsində hesabatlı kəşfiyyatın təmin edilməsi

### Bu buraxılışla bağlı

**TSİ-ı Köməkçi materialları yaxşı təhlükəsizlik sektoru idarəçiliyi(TSİd) və təhlükəsizlik sektoru islahatı(TSİ) üzrə mövzulara qısa girişlər verir. Bu cür buraxılışlar indiki dövrdə gedən debatları ümumiləşdirir, əsas terminləri izah edir və geniş təcrübəyə əsaslanaraq əsas gərginlik doğuran məsələləri üzə çıxarır. TSİ Köməkçi materialları yaxşı idarəçilik və ya islahat üçün spesifik modelləri,siyasi proqramları və ya təklifləri təbliğ etmir,əksinə hər bir bu cür mövzular üzrə oxucuların biliklərinin artması üçün, onları əlavə vəsaitlərlə təmin edir. TSİ Köməkçi materialları yaxşı təhlükəsizlik sektoru idarəçiliyi (TSİd) və Təhlükəsizlik sektoru islahatı (TSİ) üzrə mövcud yanaşmaları anlamaq və tənqidi qiymətləndirmə aparmaq istəyən təhlükəsizlik sektoru idarəçiliyi və islahatı üzrə çalışan maraqlı tərəflər üçün nəzərdə tutulan vəsaitdir.**

DCAF Geneva Centre for Security Sector Governance

## TSİ-ı Köməkçi materialları ilə bağlı

Bu TSİ-ı Köməkçi materialları, demokratik rəhbərlik və nəzarət prinsiplərinin kəşfiyyat xidmətlərinə necə tətbiq edilə biləcəyini izah edir. Kəşfiyyat üzərində nəzarət vacibdir,çünki kəşfiyyat xidmətləri hətta ictimaiyyətin maraqlarına xidmət etdiyi hallarda demokratik idarəçiliyə,qanun aliliyi və insan hüquqlarına təhlükə yarada bilər. Yaxşı Təhlükəsizlik Sektoru İdarəçiliyi prinsiplərinin, demokratik rəhbərlik və nəzarət sistemi vasitəsilə tətbiq edilməsi dövlətin və vətəndaşların təhlükəsizliyini təmin etməklə kəşfiyyat xidmətlərini həm effektiv və həm də hesabatlı edir.

## Bu TSİ Köməkçi materialları aşağıdakı suallara cavab verir:


- Kəşfiyyat üzərində demokratik nəzarət nəyə görə vacibdir? .............................................. 2
- Kəşfiyyat üzərində demokratik nəzarət necə işləyir?........................................................ 2
- Kəşfiyyat üzərində demokratik nəzarətin tipik problemləri nədir? ........................................ 8
- Kəşfiyyat üzərində daxili nəzarət yaxşı idarəçiliyə necə təsir edir? ........................... 8
- Kəşfiyyat üzərində icra nəzarəti yaxşı idarəçiliyə necə təsir edir?........................................ 8
- Parlament, kəşfiyyat üzərində demokratik nəzarət aparılmasında hansı rolu oynayır?... 9
- Ədliyyə sistemi kəşfiyyat üzərində rəhbərlik və nəzarətə necə cəlb olunur?......................... 10
- Kəşfiyyat üzərində ictimai nəzarət necə tətbiq edilir? ........................................................11
- Əlavə vasitələr ...........................................11


## Kəşfiyyat üzərində demokratik nəzarət nəyə görə vacibdir?

**Kəşfiyyat xidmətləri öz qanuni mandatlarını yerinə yetirərkən hesabatlı tutulduqları halda onların həm effektivliyi və həm də legitimliyi möhkəmlənir.** Demokratik idarəçiliyi, qanun aliliyi və insan hüquqlarını,o cümlədən,gendər bərabərliyini təmin etməklə, hakimiyyətdən sui-istifadələrin qarşısını almaq üçün demokratik nəzarətin olması vacibdir.

Demokratik nəzarət həm də kəşfiyyat xidmətlərini siyasi sui-istismardan qoruyur və kəşfiyyat peşəkarları üçün tam təminatlı,peşəkar inkişafa kömək edən və ayrımçılıq olmayan iş şəraitinin qurulmasına kömək edir. Bu səbəblərə görə,yaxşı idarəçilik prinsiplərinin tətbiq edilməsi kəşfiyyat fəaliyyətinin qanuni, operativ, maliyyə və inzibati praktikaları kimi hər bir tərəfinin demokratik rəhbərlik və nəzarətə məruz qalmasını tələb edir.

### Rəhbərlik və nəzarət: oxşardır lakin fərqlidir

Rəhbərlik təşkilatın proqram və fəaliyyətlərini yönəltmək üçün səlahiyyətləri nəzərdə tutur ,məsələn, təşkilatın necə işləməsini müəyyən edən qaydalar, kodekslər və proqramlar ortaya qoyur. Nəzarət isə qayda və qanunlara riayət edilib edilmədiyini və kodeks və proqramların tətbiq edilib edilmədiyini yoxlayır. Nəzarət, çox sayda müxtəlif tərəflər və təsisatlar tərəfindən aparıla bilər, rəhbərlik isə icra orqanının məsuliyyətinə daxildir. Lakin, heç də bütün hökümətlər bu iki termini aydın şəkildə bir-birindən ayırmağı bilir; beləliklə, bir sıra nəzarət orqanları da müəyyən rəhbərlik səlahiyyətlərinə malik ola bilər,eyni zamanda rəhbərlik fəaliyyətləri də nəzarət funksiyaları daşıya bilər.

## Kəşfiyyat üzərində demokratik nəzarət necə işləyir?

Kəşfiyyat xidmətləri üzərində nəzarət onların işini,dürüstlüyünü və qanunlara necə riayət etdiyini və həmçinin,icra və daxili nəzarətin keyfiyyətini qiymətləndirir. Kəşfiyyat üzərində nəzarətin əsas məsələlərinə aşağıdakılar aiddir:

- Kəşfiyyat rəsmiləri öz mandatları daxilində və qanun aliliyi çərçivəsində hərəkət edirlərmi?
- Öz mandatlarını yerinə yetirmək üçün onlar lazımi hüquqi səlahiyyətlərə,büdcə və kadrlara malikdirlərmi?
- Kəşfiyyat fəaliyyəti və ya proseslərdən hansı problemlər üzə çıxır?
- Siyasi liderlər kəşfiyyat xidmətlərindən sui-istifadə edirlərmi?
- Kəşfiyyat peşəkarları tərəfsiz və obyektiv analizlər edirlərmi və ya onların analizləri siyasiləşmişdirmi?




Şəkil1. Nəzarət, kəşfiyyat əməliyyatı baş vermədən öncə,əməliyyat zamanı və sonrası baş verə bilər.

**Hökümətin fərqli sistemləri kəşfiyyat üzərində nəzarəti fərqli yollarla aparır.** Kənar nəzarət, uyğun parlament və ekspert nəzarət orqanları ilə birlikdə, tipik olaraq, hökümətin icra,məhkəmə və qanunvericilik orqanlarını və həmçinin, daxili rəhbərliyi həyata keçirən kəşfiyyat xidmətlərinin yüksək rəhbərliyini də əhatə edir. Müstəqil nəzarət, ombudsman təsisatları və ali audit təsisatları vasitəsilə də aparıla bilər,mülki cəmiyyət və media isə ümumilikdə ictimai və ya qeyri-rəsmi nəzarəti təmin edir. Şəkil2 kəşfiyyat nəzarəti üçün sxematik strukturu göstərir.




Təhlükəsizlik yoxlamaları və məlumat axınına nəzarət edən sistem, demokrtaik nəzarət sistemi çərçivəsində həssas məlumatların təhlükəsizliyini təmin edir.




Şəkil3: Kəşfiyyat xidməti üzərində effektiv demokratik nəzarət, kəşfiyyat xidmətlərinin işini etibarlı şəkildə qiymətləndirmək üçün nəzarətçilərin həm mandat və həm də səlahiyyətlərinin olmasını tələb edir

**Nəzarət orqanları, öz mandatlarını effektiv şəkildə yerinə yetirə bilmək** üçün zəruri səlahiyyətlər və vasitələrə malik olmalıdır. 3-cü şəkil kəşfiyyat xidmətlərini effektiv edən xarakterləri göstərir, buraya məlumatlara çıxış,nəzarətin müstəqilliyi,səlahiyyəti və hərəkət azadlığı daxildir.

Nəzarət orqanlarıının məxvi məlumatlara çıxışı olmalı,kifayət qədər araşdırma səlahiyyətlərinə malik olmalıdlr və strateji kəşfiyyat proqramları irəli sürmək səlahiyyətində olmalı,büdcələr və/və ya yüksək səviyyəli təyinatlara çıxışları olmalıdır. Effektiv nəzarət yoxlamalar,dinləmələr,sənədli analizlər,müsahibələr,şahid ifadələri və məlumatlara birbaşa çıxışı tələb edir.

### Yaxşı təhlükəsizlik sektoru idarəçiliyi (TSİd) və təhlükəsizlik sektoru islahatı(TSİ).

Yaxşı TSİd-nin prinsipləri hesabatlılıq, şəffaflıq, qanun aliliyi,iştirakçılıq, vaxtında problemlərə reaksiya verilməsi,effektivlik və məhsuldarlıqdan ibarətdir. Yaxşı təhlükəsizlik sektoru idarəçiliyi,dövlət təhlükəsizliyi sektorunun demokratik ölkədə işləməsini göstərən normativ standardlardır. Yaxşı TSİd –nin prinsiplərinin təhlükəszlik təminatına tətbiq edilməsi təhlükəsizlik sektoru islahatının məqsədidir. TSİ siyasi və texniki proses olub təhlükəsizliyin təmin edilməsini, idarəetməsini və onun üzərində nəzarəti mülki demokratik nəzarət,qanun aliliyi və insan hüquqları çərçivəsində daha da effektiv və daha da hesabatlı etməklə dövlətin və əhalinin təhlükəsizliyini yaxşılaşdırmaqdır. TSİ-ı sadəcə dövlət təhlükəsizliyi təminatının bir hissəsinə fokuslana bilər və ya bütöv sistemin necə işləməsinə fokuslana bilər, burada əsas məsələ effektivlik və məhsuldarlığın yaxşılaşdırılmasıdır.

## Kəşfiyyat üzərində demokratik nəzarətin tipik problemləri nədir?

**1. Sirlilik:** Geniş hökümət bürokratiyasının idarəetməsi,rəhbərliyi və nəzarəti sirlilik zərurəti yaranan zaman daha da çətinləşir. Məlumatlara çıxış üçün aydın mandatı olan müstəqil,lakin bir-biri ilə bağlı nəzarət təsisatları bu problemi aradan qaldırmağa kömək edə bilər.

**2.** İxtiyarı səlahiyyət: Kəşfiyyat peşəkarları müstəqil qərarlar qəbul etmək üçün və işlərinin gedişində bu cür çox sayda qərarlar qəbul etmək üçün adətən ixtiyarı səlahiyyətlərə malik olurlar. Bu cür qərarlar üzərində effektiv nəzarət vaxt aparır və çətindir. Müstəqil qərar-qəbul edilməsi prosesinin mümkün olduqca sağlam olmasını təmin etmək üçün,yaxşı idarəçiliyə və qanun aliliyinə hörmət əsasında, o cümlədən, gendər bərabərliyi əsasında, rəhbərliyin, kəşfiyyat xidmətlərinin hər bir mərhələsinə peşəkarlıq mədəniyyəti yeritməsi əhəmiyyət daşıyır.

3. **Siyasi iradə:** Təhlükəsizlik xidmətlərində mövcud olan sirlilik səviyyəsinə görə,onların hesabatlılığının təmin edilməsi məsələsinin qaldırılması seçkilərdə kiminsə qalib gəlməsi üçün həmişə faydalı olmur. Bu o deməkdir ki,seçilmiş nümayəndələr kəşfiyyat üzərində icra və ya qanunvericilik nəzarəti aparmağa vaxt sərf etmək həvəsində olmaya da bilər.Siyasi qərar vericilər, bir çox qərarların nəticələrindən,"həqiqətəuyğun inkar"-a əsaslanaraq özlərini qorumağı üstün tuta bilərlər. Nəzarət mexanizmləri, qəbul edilmiş qərarlara kimin məsuliyyət daşıdığına aydınlıq gətirərək kəşfiyyat xidmətlərini bu cür növ siyasi manipulyasiyalardan qorumağa kömək edə bilər.

4.Şişirdilmiş təhlükə qavrayışı: Ölkənin təhlükəsizliyinə qarşı güman edilən təhlükələr, təhlükəyə qeyri-proporsional olan addımların atılmasına bəraət vermək üçün istifadə edilə bilər və demokratik idarəçilik,insan hüquqları və qanun aliliyi prinsiplərinə zərərli ola bilər. Yüksək səviyyəli peşəkarlıq,siyasi müstəqillik və effektiv nəzarət, ölkə təhlükəsizliyinə yönəlmiş təhlükənin fəsadlarını kəşfiyyat analizlərinin layiqincə qiymətləndirməməsi və ya həddən artıq qiymətləndirməsi baxımından zəruridir.

**5.Beynəlxalq miqyas:**Kəşfiyyat üzrə beynəlxalq əməkdaşlıq, ölkənin kəşfiyyat xidmətlərinin səlahiyyət və fəaliyyətlərini ölkənin nəzarət və baxış sistemləri üçün əlçatmaz edir. Aparılan beynəlxalq əməkdaşlıq üzrə lazımi məlumatların olmadığı yerlərdə və ya nəzarət orqanlarının ölkə yurisdiksiyasından xaricə çıxa bilmədiyi hallarda problemlər ola bilir. Beynəlxalq əməkdaşlığın miqyas və təbiətinin müəyyən edilməsi pozuntuların qarşısını ala bilər və ölkə kəşfiyyat xidmətlərinin etibarlılığını artırar.

**6. Texnoloji inkişaf**: Kəşfiyyat işlərində istifadə edilən texnologiya, onlar üzərində aparılan nəzarət və baxışın mandatları və səlahiyyətlərindən daha sürətlə irəliyə gedir və nəticədə hesabatlılıq boşluğuna aparır. Texniki ekspertlər nəzarət orqanlarına mühüm məlumatlar verə bilər, eyni zamanda qanunvericilər qanunverici sənədlərin bu cür dəyişikliklərlə bərabər addımlamasını təmin etməlidirlər.

## Keçid dövrü yaşayan ölkələrdə rəhbərlik və nəzarətə olan dəyişikliklər

Kəşfiyyat xidmətləri adətən avtoritar və ya totalitar rejimləri qorumaq üçün mühüm element sayılır və bu o deməkdir ki,onlar yeni demokratik sistemlərə keçid zamanı xüsusi problemlər yarada bilər:

- Keçmiş rejim zamanı toplanmış məlumatlar şantaj, dələduzluq və ya siyasi oyunlar üçün istifadə oluna bilər;
- Keçmişdəki pozuntulara görə ədalət axtarılması nüfuzlu dairələr üçün siyasi keçidin durmasına imkan yaradar;
- Keçmişdəki pozuntulara görə cəzasızlıq yeni siyasi təsisatları sarsıdar;
- Keçid dövrü yaşayan ölkələrdə hökumət rəsmiləri,seçilmiş nümayəndələr,mülki cəmiyyət və media kəşfiyyat xidmətlərini gözdən keçirmək üçün pis avadanlıqla təmin oluna bilər və ya bunu etmək istəməz.
- Demokratik nəzarət və rəhbərlik üçün hüquqi sənədlərin olmaması,xidmətlərin dağınıqlığı və kəşfiyyat xidmətlərinin geniş mandatları nəzarəti çətinləşdirir.

## Kəşfiyyat üzərində daxili nəzarət yaxşı idarəçiliyə necə təsir edir?

Daxili nəzarət, **kəşfiyyat xidmətlərini qaydalar və proseslərlə təmin edir və onlar xidmətin işçilərinə yaxşı idarəçiliyin əsas sütunları olan qanuna uyğunluq, insan hüquqlarına hörmət ,o cümlədən, gendər bərabərliyi əsasında** öz səlahiyyətləri çərçivəsində peşəkarcasına və effektiv şəkildə işlərini görməsin**ə** imkan verir.

Daxili nəzarət effektiv idarəetmə vasitəsilə çalışır ki:

- Bütün kəşfiyyat fəaliyyətləri və eynilə ştatlı işçilərin fəaliyyəti üçün tapşırıqların verilməsi,onların hesabatı və qiymətləndirilməsi prosesini koordinasiya etsin;
- Kəşfiyyat işçiləri üçün rəhbərlər dərc etsin və davranış kodeksləri, təlimatlar,hüquqi standardlar və peşəkar etik qaydalarına riayət edilməsini təmin etsin;
- Kiçik pozuntuları ayırd etsin və düzəltsin və eyni zamanda əsas pozuntuların isə hüquq sistemi və ya uyğun olduqca,yüksək nəzarət təsisatları tərəfindən qaydalara uyğun şəkildə həll edilməsini təmin etsin.

**Peşəkar etikanın yüksək standardlarına güclü bağlılıq,** kəşfiyyat xidmətlərində ənənəvi mühüm hesabatlılıq mexanizmlərindən biridir.

## Kəşfiyyat üzərində icra nəzarəti yaxşı idarəçiliyə necə təsir edir?

Demokratik ölkələrdə kəşfiyyat xidmətləri üzərində icra orqanlarının adətən iki əsas rəhbər məsuliyyəti vardır:

- **Operativ məsuliyyət** kəşfiyyat xidmətləri üçün geniş proqramları, prioritetləri və büdcələri müəyyən edir,həssas əməliyyatlara səlahiyyət verir və şübhəli davranış olduğu zaman sorğularla çıxış edir. İcra orqanları, həm də, daha geniş milli təhlükəsizlik siyasəti çərçivəsində milli təhlükəsizliyə töhvə verilməsi üçün kəşfiyyat xidmətlərini daha yaxşı avadanlıqlarla təmin edir.
- Parlament və xalq qarşısındakı **siyasi məsuliyyət** kəşfiyyat xidmətlərinin effektiv,hesabatlı və qanuni davranışını təmin edir.

Bu iki məsuliyyətin hər biri yaxşı idarəçiliyin əsas elementləridir.

İcra hakimiyyəti birbaşa və ya dolayı yolla həyata keçirilə bilər. Hərbi və ya hüquq mühavizə agentlikləri kimi təsisatların daxilində mövcud olan kəşfiyyat idarələri, adətən, müdafiə,ədalət və daxili işlər nazirlikləri kimi bu sektora uyğun nazirliklər və idarələr tərəfindən rəhbərlik edilir. Müstəqil işləyən kəşfiyyat xidmətləri çox zaman birbaşa olaraq prezident və ya baş nazirin idarəsi və ya milli təhlükəsizlik məsləhət orqanı kimi birgə çalışan icra orqanı vasitəsilə icra orqanının rəhbərliyində hərəkət edir.

**Icra orqanı rəhbərliyi ilə kəşfiyyat xidmətlərinin peşəkar muxtariyyəti arasında balansın tapılması bu xidmətlərin həm effektivliyi və həm də hesabatlılığı baxımından vacibdir**. Bir tərəfdən,kəşfiyyat xidmətləri icra orqanlarının hakimiyyətindən kifayət qədər sərbəst olmalıdırlar ki,onlar özlərini siyasi təsirdən qoruya bilsinlər və müstəqil obyektiv analizlər edə bilsinlər. Digər tərəfdən,hətta nisbətən sərbəst kəşfiyyat xidmətləri insan hüquqları və qanun aliliyini təmin etmək baxımından hökümətin nəzarətində qalmalıdır ki, onlar dövlətə və onun vətəndaşlarına təhlükə olmasın.

## Parlament, kəşfiyyat üzərində demokratik nəzarət aparılmasında hansı rolu oynayır?

**Parlamentlər hüquqi sənədlər qəbul edir və onların çərçivəsində kəşfiyyat xidmətləri işləyir və onların qanunlara necə riayət etməsini monitorinq edir**. Parlament, kəşfiyyat xidmətlərinin işinin effektiv və qanuni olub-olmadığını müəyyən edə bilir. O bir qayda olaraq kəşfiyyat xidmətinin büdcəsinə nəzarət etməklə inzibati praktikalara və maliyyə işlərinə nəzarət edir. Bir sıra ölkələrdə,parlamentlər əməlliyyat işləri ilə bağlı xəbərdar edilir və ya hətta bu əməliyyatları sanksiya edə bilər və baxış da keçirə bilər. Bu cür prosedurlar, kəşfiyyat xidmətlərinin siyasi hakimiyyət tərəfindən sui-istismar edilməsinin qarşısını alar.

**Parlament, ekspert qrupları tərəfindən kənardan nəzarəti təmin edə bilər** və onların ya ümumi ya da xüsusi nəzarət mandatları ola bilər. İdeal halda bu qruplar daimi olur,lakin bir sıra ölkələr xüsusi hazırlanmış müvəqqəti qruplardan istifadə edir. Parlament nəzarəti həm kəşfiyyat xidmətlərinin fəaliyyətlərini və həm də icra orqanlarının işinin keyfiyyətini gözdən keçirir. 3-cü şəkildə ifadə edilən bütün xarakterlər, kəşfiyyat xidmətləri üzərində parlament nəzarətinin effektivliyi üçün əhəmiyyət daşıyır.

**Parlamentlər həm də hüquqi sənədlərdə gendər bərabərliyi müddəalarının yer tutmasına cavabdehdir**. Buraya işə qəbulların düzgün formada keçirilməsi və kəşfiyyat xidmətləri üçün prosedur tələbləri və həmçinin,nəzarət funksiyaları yerinə yetirən təsisatlar və xidmətlərin işi üzərində monitorinq də aiddir. **Məqsəd özlərinin operativ və inzibati fəaliyyətlərində insan hüquqlarına hörmət edən effektiv, iştirakçı və təmsilçi təsisatlar qurmaq** və eyni zamanda bütün qadınların,kişilərin,oğlan və qızların fərqli təhlükəsizlik tələblərini həll etməkdir.

### Kəşfiyyat xidmətləri üzərində demokratik nəzarətin hüquqi sənədləri

Demokratik nəzarət və rəhbərlik aşağıdakıları müəyyən edən hüququ sənədlərdən asılıdır:

- Kəşfiyyat xidmətləri üçün mandatlar, o cümlədən, xüsusi məsuliyyət dairəsi və onların limitləri;
- Izn verilən və izn-verilməyən metodlar və fəaliyyətlər və onların istifadəsinə qoyulan məhdudiyyətlər,xüsusilə, insan hüquqlarına müdaxilə edən hər hansı metod və fəaliyyət;
- Təşkilati strukturlar və həm ölkə daxilində və həm də xaricdə kəşfiyyat xidmətlərinin bir-biri arasında və ya kəşfiyyat xidmətləri aralarında əməkdaşlığın metodları;
- Xidmətin hesabatlı tutulduğu nəzarət və rəhbərlik mexanizmləri, o cümlədən,hökümətin icra,qanunvericilik və məhkəmə orqanları və həmçinin,xüsusi müstəqil təşkilatlar.
- Şikayət,hüquqların pozulması və ya qəddar münasibət olduğda məhkəməyə müraciət vasitələri.

Kəşfiyyat nəzarəti üçün sağlam hüquqi sənədlərin hazırlanması parlamentin məsuliyyətidir; həmən sənədlərin həyata keçirilməsi icra orqanları və məhkəmənin işidir.

## Ədliyyə sistemi kəşfiyyat üzərində rəhbərlik və nəzarətə necə cəlb olunur?

Məhkəmə nəzarəti, kəşfiyyat xidmətlərinin və siyasi hakimiyyətin davranışlarını və missiyalarını idarə edən qanunlara riayət edilməsini təmin edir. Ədliyyə sistemi:

- Özəl axtarış,izləmə və ya saxlama kimi xüsusi səlahiyyətlər verir və onlar üzərində nəzarət edir. Bu, məsələn, xüsusilə məhkəmə qərarı ilə hadisədən öncə verilən səlahiyyətləri və /və ya xüsusi istintaq tədbirlərinin ( başa çatdıqdan sonra)məhkəmə baxışını nəzərdə tutur;
- Kəşfiyyatla əlaqəli işlərdə,**pis davranış ittihamlarına,cinayət fəaliyyətinə və ya məlumatlara çıxış ittihamlarına baxır və qərar çıxarır**. Sirliliyin cəzasızlığa gətirib çıxarmamasını təmin etməkdən ötrü, xüsusi hüquqi maddələr qanunun hətta məxvi məlumatların qorunduğu zaman tətbiq edilməsini təmin edir. Məhkəmələr, həm də məlumat azadlığı qanunları və siniflendirmə cədvəlinə uyğun olaraq həssas məlumatlara çıxış haqqında qərar çıxarır. Məhkəmələrdən həm də gizli məlumatları qanunsuz olaraq yaymağa görə irəli sürülən ittihamlara da baxılması tələb oluna bilər, məsələn,ifşaedici ilə bağlı qanunlar əsasında.
- **Hüquqi icmal aparır** və onun nəticəsində qanunvericilik və icra orqanları tərəfindən kəşfiyyatla bağlı yaradılmış bütün qanunların və proqramların konstitusiya qanunu ilə uzlaşıb-uzlaşmadığını təmin edir;

- **Parlament və ya icra orqanlarının nəzarət aparmasına** məhkəmə rəsmiləri vasitəsilə(və ya istefaya getmiş üzvlər vasitəsilə) kömək edir və öz təcrübələri ilə parlament araşdırmalarına və ya nəzarət komissiyalarına töhvə verir və ya icra orqanlarının xahişi ilə keçmişdə baş vermiş hadisələr ilə bağlı araşdırma aparır.

## Kəşfiyyat üzərində ictimai nəzarət necə tətbiq edilir?

Təhlükəsizlik sektoru və/və ya insan hüquqları məsələlərinə fokuslanmış ictimai maraqlı jurnalistika,elmi dairələr və düşüncə mərkəzləri və həmçinin, geniş miqyaslı mülki cəmiyyət təşkilatları kəşfiyyat məsələləri üzrə ictimai nəzarət apara bilər. İctimaiyyət,hökümətə birbaşa siyasi təzyiq göstərə bilər və eyni zamanda media, hökümətin diqqətini mühüm mövzulara yönəldərək və kəşfiyyat xidmətlərində baş verən sui-istismarları üzə çıxararaq ictimai məlumatlılığı artırmaqda əsas rol oynayır. İctimaiyyət,m**edia və mülki cəmiyyət** təşkilatları vasitəsilə, kəşfiyyat sistemində daha çox demokratik hesabatlılıq tələb edə bilər. **Lakin,ictimai nəzarətin effektivliyi etibarlı məlumatlara çıxışdan asılı olacaqdır.**

Gizli məlumatlar haqqında hüquqi qaydalar, əsaslanmış sirlilik vasitəsilə hesabatlılıq və şəffaflığı uyumlaşdıra bilər,məsələn:

- Hökümətin əlində olan məlumatlara çıxışa izn verən **məlumat almaq azadlığı qanunu vasitəsilə;**
- **Məlumatların sinifləndirmə cədvəli** hansı məlumatların, nə zaman və nə qədər vaxt ərzində sirli tutulmasını və o cümlədən,onların hansı müəyyən edilmiş cədvəllə açıqlanmasını aydın şəkildə müəyyən etməsi vasitəsilə;
- İfşaedicinin qorunması **qaydaları** vasitəsilə,kəşfiyyat işçilərinin korrupsiya, aldatma və pis idarəçilik kimi pis davranışlarını üzə çıxararaq gizlilik və tabeçilik kimi öhdəliklərinin pozulmasından doğan cəzadan qorxmayaraq müəyyən edilmiş xidmətdaxili və ya kənar orqanlara çatdırmasına imkan verir. Eyni zamanda, bu cür məlumatların açıqlanması hətta geniş ictimaiyyətin maraqlarına xidmət etsə də və milli təhlükəsizliyə zərər vursa da bu vacibdir.

## Əlavə vəsaitlər

*Demokratik ölkələrdə effektiv kəşfiyyatın və onun üzərində aparılan nəzarətin problemləri haqqında*


- Born,Hans və Lok Conson (2005). “Operativ Məhsuldarlıq və Demokratik Legitimliyin Balanslaşdırılması”. (Hans Born, Loch K. Johnson and Ian Leigh) Born,Hans və Lok Conson və İan Leiq (red.) . *Casusları kim izləyir: Kəşfiyyat xidməti Hesabatlılığının qurulması.* Dulles. VA: Potomac books:225-240

- (Born, Hans and Aidan Wills) Born, Hans və Aidan Vills (red.).2012. “ Kəşfiyyat xidmətləri üzərində nəzarət”: Vəsait: Genevrə, DCAF.

- Vills Aidan(2015) Milli təhlükəsizlik xidmətləri üzərində demokratik və effektiv nəzarət. Araşdırma. Starsburq: Avropa Şurası.


*Kəşfiyyat xidmətləri üzərində nəzarət zamanı, nəzarət və insan hüquqları problemləri*


- Birləşmiş Millətlər(2010). “Terrora qarşı mübarizədə insan hüquqları və fundamental azadlıqların təşviq edilməsi və qorunması ilə bağlı Xüsusi Hesabatçının Hesabatı, Martin Şeynin : Kəşfiyyat xidmətlərinin terrora qarşı mübarizəsində insan hüquqlarına hörmət edən və onlar üzərində nəzarəti əhatə edən hüquqi və təsisati sənədlər və tədbirlər üzrə yaxşı praktikaların toplusu” . İnsan hüquqları Şurası qətnaməsi A/HRC/14/46.

- Bastick Meqan(2014). *Ombudsman və ölkə insan hüquqları təsisatları tərəfindən gendər* məsələlərinin *təhlükəsizlik sektoru üzərində nəzarət* işlərinə daxil edilməsi. Genevrə, DCAF,ATƏT,ATƏT/ODİHR.

*Keçid dövrü yaşayan ölkələdə kəşfiyyat xidmətlərinin islahatı*


- (Bruneau, Thomas C. and Kenneth R. Dombrosky ) Bruneau,Tomas və Kennet Dombrovski(2006). Kəşfiyyat xidmətinin islah edilməsi: Yeni demokratik ölkələrdə nəzarət problemi. (Thomas C. Bruneau and Scott D. Tollefson) Tomas Bruenau və Skott Tollefson(red.)*Keşikçilərə kim keşik çəkir və necə.: Demokratik-mülki-hərbi münasibətlər.* Austin. Texas Universiteti . 145-177

- (Caparini, Martina and Hans Born) Kaparini Marina və Hans Born (red.).(2013). *Kəşfiyyat xidmətləri üzərində demokratik nəzarət : nəzarətsiz fillərlə.* Oksford. Rutlige.

- (Africa, Sandy and Johnny Kwadjo )Afrika Sandi və Coni Kvado(red.) *Afrikada Kəşfiyyat xidmətinin dəyişən dinamikası*. Birminhem. Biminhem Universiteti Təhlükəsizlik sektoru İslahatı üzrə Qlobal Kömək Şəbəkəsi(GFN-SSR).

*Beynəlxalq kəşfiyyat əməkdaşlığı üzərində nəzarət üzrə:*

- Born,Hans, İan Leiq və Aidan Vills(2015). *Beynəlxalq Kəşfiyyat Əməkdaşlığının hesabatlı edilməsi*.Genevrə.DCAF.
- (Aldrich, Richard J.)Aldrik Riçard (2009). “Qlobal kəşfiyyat əməkdaşlığı hesabatlılığa qarşı: Köhnə problemə yeni üzlər”.. *Kəşfiyyat və milli təhlükəsizlik*.2491).26-56.


**Əlavə DCAF vəsaitləri**

DCAF TSİ-ı və yaxşı idarəçilyin bütün aspektləri üzrə geniş tərkibdə vəsaitlər, kitabçalar və rəhbər vəsaitlər dərc edir və onlar DCAF-ın saytından əldə edilə bilər.

Çox sayda vəsaitlər ingilis dilindən başqa digər dillərdə də vardır.

----

DCAF-İSSAT Praktikası öyrənmə saytında çox sayda onlayn vəsaitlər TSİ-ı praktikləri üçün sərbəst əldə edilə bilər: http://issat.dcaf.ch

**Silahlı Qüvvələr Üzərində Demokratik Nəzarət üzrə Cenevrə Mərkəzi (DCAF)** beynəlxalq fond olaraq müxtəlif ölkələrə təhlükəsizlik sektorunda yaxşı idarəçiliyi və islahatları təşviq edir.

Mərkəz təhlükəsizlik sektorunda demokrtaik idarəçiliyi təmin etmək üçün normalar və standardlar hazırlayır və təşviq edir, dərin siyasi araşdırmalar aparır, ən yaxşı praktikaları və tövsiyələri aydınlaşdırır ölkədaxili səviyyələrdə məsləhətlər verir və praktiki kömək proqramları irəli sürür.

**DCAF aşağıdakı şəxslərə təşəkkür etmək istəyir**

Ronca Hardera tədqiqat, yazı və redaktəyə görə
Cenni Rouza İngiliscə redaktə etdiyinə görə
Florens Lesura Fransız dilində tərcümə etdiyinə görə
Qeraldin Çante1relə Fransız dilində redaktə etdiyinə görə,və
Petra Qurtnerə dizayna görə

**DCAf Norveç Parlamenti Kəşfiyyat xidmətləri üzərində Nəzarət Komitəsinə (EOS Utvalget)bu** Köməkçi materialların **yazılmasını maliyyələşdirdiyinə görə təşəkkür edir.**

**Seriyaların redaktoru**
Fairli Çappuis

**Bu buraxılışa isnad etmək üçün**

DCAF-Təhlükəsizlik Sektoru İdarəçiliyi üzrə Cenevrə Mərkəzi. Təhlükəsizlik Sektoru İslahatı, TSİ-ı Köməkçi materialları seriyaları. Cenevrə,DCAF,2015.

© DCAF. TSİ Köməkçi materiallarını bu saytdan əldə etmək olar www.dcaf.ch . İstifadəçilər DCAF-a isnad edərək bu materialların surətini çıxara bilər və yaya bilər. Kommersiya məqsədi üçün istifadə edilə bilməz.